"Kulturologiya" dərslik kitabında oxuyuruq: "Yunanca Mesopotamiya adlanan qədim İkiçayarası ölkəsi Asiyada yerləşir. Ön Asiyanın çox hissəsi dağlar və yaylaqlardır. Onların arasından Dəclə və Fərat kimi böyük çaylar axır. Bu çayların hər ikisi başlanğıcını Qafqazdan cənubda olan dağlardan alır və İran körfəzinə tökülür". İkiçayarasının cənub hissəsi Fərat və Dəclə çaylarının töküntülərindən əmələ gəlmişdir.

# İkiçayarası xalqların mədəniyyəti


Zikkurat

Nil çayına nisbətən bu çaylar - Dəclə və Fərat daha dəliqanlıdır. Dini abidə olan "Tövrat"da da göstərilən Nuhun daşqını deyilənə görə, Dəclə və Fərat çaylarının daşması ilə başlamışdır. Qədim Mesopotamiya, daha doğrusu Cənubi Mesopotamiya var. Dövlət IV-III minilliklərdə Şumek və Semint tayfaları bazasında yaradılmışdır. Diqqətçəkən amillərdən ən başlıcası odur ki, şumerlər dünya mədəniyyətinin inkişafında mühüm rol oynamışdır.

Bizim eradan əvvəl 2350-ci ildə Şumer tayfalarının güclənməsi nəticəsində mədəniyyətlər əlaqəsi yaranmış və inkişaf etmişdir. Babilistan təkcə zəbt etdiyi torpaqları genişləndirməklə deyil, eyni zamanda mədəni əlaqələrini genişləndirməklə də diqqət çəkirdi.

İkiçayarası xalqların mədəniyyəti də bu dirçəlişdə özünəməxsus yer tuturdu. Unutmaq olmaz ki, Şumerlər Mixi yazılarını, "Zikkurat" adlanan tikilini də dünya mədəniyyətinə bəxş etmişdir. Eyni zamanda böyük məbədlər də tikilmişdir. Bununla da kahinlər və mirzələrin çoxalması ilə əlaqədar burada ədəbiyyat, zəngin mədəniyyət formalaşmağa başlamışdır.

Qeyd etmək lazımdır ki, Mesopotamiyada ilk insanlar Paleolit dövründə görünməyə başladığı zamandan mədəniyyətlərinin də qeydinə qalmışlar. Qeyd etməliyik ki, İkiçayarası ərazisində yaşayan xalqların mədəniyyəti dünya mədəniyyətinə böyük təsir etmişdir. Onlar II minillikdən başlayaraq təbabəti inkişaf etdirmişlər.İkiçayarası xalqlar fundamental mədəniyyətin də inkişafına diqqəti artırmışlar. Belə ki, onlar öz mədəniyyət dirçəlişlərini rəssamlıqda, heykəltəraşlıqda daha yaxşı göstərirdilər. Artıq burada yeyib-içmək mədəniyyəti, məişət mədəniyyəti də inkişaf edirdi. Onlar stul, stol, çarpayı icad etmişdilər. Bu dövrdə Mesopotamiyada - İkiçayarası xalqlarda "Bilqamıs" kimi dahiyanə yazılı dastan yaranmışdır.

Bu əsəri oxuyarkən aydın olur ki, bayram təşkil etmək, zövqlə geyinib-kecinmək, mədəni davranışlar, çal-çağır, musiqi, mədəni yanaşma, insanların mədəni proqramı olmalıdır. "Bilgə" sözündən, yəni "bilmək" sözündən götürülən "Bilqamıs" əsəri İkiçayarası xalqların, Mesopotamiyanın mədəni inkişafında əsas amil olmuşdur.

Elə buna görə də "Bilqamıs" dastanı dünya mədəniyyətinə böyük təsir etmişdir. "Bilqamıs" dastanının böyüklüyü ondadır ki, bu mədəniyyət abidəsi Nuhun tufanı barədə daha geniş məlumat vermişdir. Ümumiyyətlə, Şumer dövləti, eyni zamanda bütövlükdə Babilistan mədəniyyəti "tunc əsrinin mədəniyyəti"nin ən tipik nümunəsi hesab edilir. Qədim Babil astronomları, riyaziyyatçıları, münəccimləri, təbibləri, ədəbiyyat və incəsənət xadimləri, musiqiçiləri, hüquqşünasları, inşaatçıları, memarları dünya mədəniyyəti tarixinə çox töhfələr vermişdir.

İkiçayarası xalqları, konkret olaraq İkiçayarasında yerləşmə mənasını verən Mesopotamiyada, yəni qədim yunanların təbirincə desək İraq mədəniyyəti bu gün də Şərqin mədəniyyət nümunəsidir. Ərəb dilində "Sahil", "Çay sahili" mənasını verən "İraq" sözündən götürülmüş bu İkiçayarası dövlətinin mədəniyyəti elə indi də Şərqə örnək ola biləcək mədəniyyəti ilə öyünə bilər.

İraqın əhalisinin 80 faizini ərəblər təşkil etsə də burada kürdlərə, türkmənlərə, azərbaycanlılara da rast gəlmək olur. Elə bunun nəticəsidir ki, əksərən Kərkük nahiyyəsində yaşayan azərbaycanlıların, türkmənlərin də mədəniyyəti öz təsirini göstərmişdir. İraqın şəhərsalma mədəniyyəti nəinki Şərq aləminə, eyni zamanda dünya şəhərsalma mədəniyyətinə nümunə ola bilər. Şərqdə Bəsrədəki ən böyük elektrik elivator, ticarət mərkəzinin arxitekturası nümunə ola bilər. Bəsrədəki Universitet kompleksi gözəlliyi ilə seçildiyi kimi, bir çox mədəni-maarif müəssisələri də diqqəti cəlb edir.

Burada idman hovuzu kompleksi, "Qələbə" klubu, kitabxanası, mədəni-maarif kompleksləri diqqəti çəkir. Bəsrədəki "Sindibad" adasındakı turizm bazasında mədəni-maarif və turizm müəssisələrinin keçirdiyi mədəni-kütləvi və turizm tədbirləri diqqəti cəlb edir.

Bağdad, Samara, Mosulda da mədəniyyət obyektləri və onların keçirdiyi mədəni-maarif tədbirləri daim İslam aləminin diqqətini cəlb edir.

Bildiyimiz kimi, Samara turizm bazası kimi məşhurdur. Burada keçirilən mədəni-kütləvi tədbirlər daim ekskursiyaya gələnlərin diqqətini cəlb etmişdir. İraqda yaranan siyasi vəziyyətə baxmayaraq İraq yenə də nümunəviliyi ilə seçilir. İraqın Kərbəla şəhərində tikilmiş və qızılla bəzədilmiş İmam Hüseyn və Həzrəti Abbas məscidlərinin arxitekturası təkrarolunmazdır. Bu maddi mədəniyyət abidələrinin analoqu yoxdur. İraqın Kərkük nahiyyəsinin folklor nümunələri təkrarolunmazdır.

Azərbaycan-İraq ədəbiyyatında oxşarlıqlar çoxdur. Məsələn, "Əsli-Kərəm" və "Arzu-Qənbər" dastanları əkiz mədəniyyət nümunələridir. "Şirvanşahlar" sarayı ilə buradakı "Şirvanşahlar" qalası da oxşar mədəniyyət nümunələridir. Buradakı "Türkmən Mədəniyyət Mərkəzi" də ortaq mədəniyyətlərin təbliğində böyük rol oynamışdır. İraqda çap olunan bir çox kitablar da məsələn, "Xayrat və bəstələri", "Ərbildən bir səs" və sair əsərlər İkiçayarası mədəniyyətin təbliğində rol oynamışdır. Mesopotamiyanın özünəməxsus mədəniyyətini əks etdirən amillərdən biri də özünü onların geyimlərində göstərir. Məsələn, "Şmaq", "Dişdamə", "Səmumə", "Qatra" kimi geyimlər İraq - Mesopotamiya mədəniyyətini əks etdirir.

"Ərranə", "Xəzzamə", "Burun gülü", "Həcma" kimi ziynət əşyaları da İkiçayarası xalqların mədəniyyətini əks etdirir.

Çox maraqlıdır ki, İkiçayarası mədəniyyətdə idarəçilik mədəniyyəti də özəllik təşkil edir. Belə ki, adi mürəkkəblə davranma mədəniyyətində də qəribəlik vardır. Məsələn, dövlət qərarına uyğun olaraq ölkənin prezidenti tünd göy mürəkkəblə, nazir qırmızı, nazir müavinləri, rəislər, böyük müəssisə rəhbərləri isə mavi rənglə qol çəkməlidirlər. Əks təqdirdə iş məhkəməlik ola bilər. Bu özü də İkiçayarası mədəniyyətin özəlliyini göstərir. İraq mədəniyyətinin təbliğində kino-teatrlar da əsas rol oynayır. İkiçayarası xalqlarının mədəniyyətinin inkişafında xalq yaradıcılığı nümunələri, o cümlədən kəndirbazlar, gözbağlayıcılar, gənc istedadlar, adət-ənənələr də mühüm rol oynayır. Burada axır vaxtlar açılmış klub, mədəniyyət evləri, sarayları, kitabxanalar, muzeylər xalqın mədəniyyətinin təbliğində mühüm əhəmiyyət kəsb edir. Bu mədəni-maarif müəssisələri istedadların üzə çıxarılmasında mühüm rol oynayır.

Qeyd etməliyik ki, İkiçayarası mədəniyyəti nəinki Şərq aləminə, eyni zamanda dünya mədəniyyətinə böyük müsbət təsir göstərmişdir.

● **Zabit CAVADOV**